# TƏTBİQİ KULTUROLOGİYADA MENTALİTET PROBLEMİ

***Mədəniyyət dünyanın ən çox təhlil və tədqiqat tələb edən elm sahələrindən biridir. Mədəniyyət həm də bəşəriyyətin ən qədim tarixə malik olan sahəsidir. Bu bir həqiqətdir ki, yer üzündə insan məskunlaşdığı vaxtdan onun mədəniyyəti də təşəkkül tapmışdır. Bu aktual elmi anlayışa müxtəlif vaxtlarda, ayrı-ayrı elm adamları tərəfindən 500-ə yaxın müxtəlif təriflər verilmişdir. Buna baxmayaraq indiyə kimi mədəniyyətin hamı tərəfindən etiraf olunan konkret elmi tərifi yoxdur.***

Mədəniyyət mütəhərrik elm sahəsidir. O daim inkişaf edir. İndiki demokratik, müstəqil Azərbaycan dövləti keçmişdəkindən fərqli olan yeni mədəniyyətin formalaşması və inkişaf etməsi dövrünü yaşayır. Hər bir mədəniyyət, eləcə də dünya mədəniyyəti öz tarixi köklərini öyrənmədən yaşayıb inkişaf edə bilməz. Bunu qədim mədəniyyəti ilə fərqlənən bəzi ölkələrin simasında da görə bilərik. Müasir dövrün prizmasından baxanda bu gün Azərbaycan mədəniyyətini, dünyada ən yüksək yerlərdən birini tutmağa layiq mədəniyyət hesab etmək olar.

Adətən mentalitetdən danışarkən onu ən çox xalqın mədəniyyəti və psixologiyası ilə əlaqələndirirlər. Lakin xalqın tarixinə bəzən laqeydlik göstərirlər ki, bu da şübhəsiz bağışlanmazdır. Mentalitet deyərkən millətin və şəxsin düşünmək, hiss etmək, ətrafda baş verən hadisələri qavramaq və qəbul etmək üsulu başa düşülür. Daha geniş mənada, mentalitet anlayışına xalqın və yaxud fərdin elmi-nəzəri səviyyəsi, mənəvi inkişaf dərəcəsi, əxlaqi keyfiyyətləri, həyat tərzi, adət və ənənələri, digər xalqlara və millətlərə münasibəti, dünyanı qavrama və qəbul etmə səviyyəsi də daxildir.

Bir termin kimi "mentalitet" sözü ilk dəfə Amerika alimi R.Emersan tərəfindən 1856-cı ildə işlədilmişdir. Bunun da nəticəsində fransız humanisti Marsel Prust onu bir neologizm kimi öz lüğətinə daxil etmişdir.

Mentalitetin milli həyatın siyasi, psixoloji və hətta ideoloji aspektlərdə qavranılması da nəzəri ədəbiyyatda özünə müəyyən yer tutmuşdur. Bir sıra Avropa milləti, xüsusilə ingilislər mentalitet deyərkən əqli qabiliyyət sahəsinə aid olanları nəzərdə tuturlar. Bir sıra alimlər mentalitet anlayışını siyasi mədəniyyətin və siyasi şüurun tərkib hissəsi kimi təqdim edirlər. Mentallıq səviyyəsi habelə fərdi və kollektiv şüurun, emosiyaların, şəxsiyyətin və cəmiyyətin mövcud dünyaya münasibətinin inkişaf dərəcəsilə ölçülür. Milli mentalitet - millətin uzun sürən tarixi inkişafını, uzun dövr ərzində xalqın etnik, yaxud da milli xüsusiyyətlərini müəyyən edir.

Müstəqillik qazanmış Azərbaycan xalqının hazırkı ictimai-siyasi fikrində və fəlsəfi ədəbiyyatında böyük maraq doğuran problemlərindən biri də onun milli mentalitet məsələsidir. Ümumiyyətlə, mentalitet nədir, digər sosial siyasi problemlərlə nə dərəcədə bağlıdır, onlarla necə qarşılıqlı təmasda olur və yaxud onlara necə təsir göstərir?

Milli mentalitet mahiyyəti, yaranması, tarixi inkişafı, tərkib hissələri, hazırkı vəziyyəti, milli siyasi, şüur və mədəniyyətlə qarşılıqlı əlaqəsi və s. problemlər ilə bu günkü ictimaiyyəti düşündürən çox mühüm nəzəri-praktik məsələlərdən birinə çevrilmişdir.

Keçid dövrü şəraitində milli mentalitetin ilk dəfə elmə daxil edilməsi respublika prezidenti mərhum milli lider H.Əliyevin adı ilə bağlıdır. H.Əliyev respublika ziyalıları qarşısında

xalqın milli siyasi şüurunun və milli siyasi mədəniyyətinin yüksəldilməsi tələblərini qoymuş, milli mentalitetin bütün vasitələrlə zənginləşdirilməsi zərurətini xüsusi qeyd etmişdir. Ona görə də mentalitet anlayışı (yuxarıda sadalanan cəhətləri) haqqında ətraflı danışmaq olar.

Bütün bunlar sübut edir ki, dünya xalqlarında mentalitet nə qədər yaxın olsa da onların fərqləndirici cəhətləri də vardır. İbtidai xalqların mentalitetini tədqiq edən fransız alimi Zevi Bryul onu "primitiv mentalitet" adlandırır və sübut edir ki, ilk insanların düşüncə tərzi ilə müasir insanların düşüncə tərzləri prinsip etibarilə fərqlənir. O, yazırdı ki, onlar başqa cür düşünmüşlər. Məsələ təfəkkürün zəif inkişaf etməsində deyildi. Bu problemin tədqiqatçıları antik dövr, orta əsrlər və müasir dövr xalqlarının mentalitet fərqlərini ortaya çıxarmış, onların oxşar və fərqli cəhətlərini araşdırmışlar.

Bütün xalqların mentaliteti kimi Azərbacan xalqının mentalitetinə də antonimlik xasdır. Bir tərəfdən azadlıq və müstəqilliyə meyl, milli vətənpərvərlik hissləri, digər tərəfdən isə konservatizm və köhnə qaydalardan ayrılmamaq, dinə və ənənələrə bağlılıq meylləri, namus və qeyrət hissini dar şəraitdə öz evinin hüdudları çərçivəsində anlamaq, onu genişləndirib ümummilli sərhədlərə çıxara bilməmək məhdudluğu və s. kimi amillər bizim milli mentalitetimizdə mövcud olan ziddiyyətlərdir.

Mentallıq insanın dünya görüşü haqqında təsəvvürlərini aydınlaşdırır. Mentallığı müstəqil fenomen kimi ictimai əhvali-ruhiyyədən, dəyər oriyentasiyasından və ideologiyadan fərqləndirmək lazımdır. O, adətləri, ehtirasları, kollektiv emosional şablonları ifadə edir. İctimai əhvali-ruhiyyə dəyişkəndir, etibarsızdır, mentalitet isə daha çox sabit xarakteri ilə fərqlənir. O özünə dəyər oriyentasiyalarını daxil edir. Lakin onlarla kifayətlənmir, sanki kollektiv və fərdi şüurun dərin səviyyəsini özündə əks etdirir. Dəyərlər dərk edilləndir. O, həyat qaydalarını ifadə edir. Mentallıq isə psixikanın şüurlu dərinliklərinə gedib çıxır.

Mentalitet öz tipologiyasında və quruluşuna görə orijinal təfəkkür qabiliyyətlərini ifadə edərək milli, sinfi, yüksək, aşağı, varlı, kasıb və s. qruplara bölünür. Bundan başqa mentalitet siyasi-ideoloji xarakter alıb, liberal, demokratik, inqilabi, əksinqilabi və s. formalarda ola bilər. Mentalitet bu mənada, siyasi şüur və mədəniyyətlə qırılmaz surətdə bağlı olur.

Mədəni fenomen kimi mentallığın Azərbaycan cəmiyyətində tədqiqi, milli mentalitetin mənşə və ictimai kökləri haqqında dəyərli elmi araşdırmalar hazırda öz tədqiqatçılarını gözləyir.

**Arif Rəhimov,**
**ADMİU-nun dosenti**